Funded
by the European Union
and the Council of Europe

EUROPEAN UNION

COUNCIL OF EUROPE
CONSEIL DE L'EUROPE

Implemented
by the Council of Europe

# Yaxşı İdarəçilik üçün Tərəfdaşlıq Proqramı 2019-2022-ci illər (YİT)

# Layihə: Azərbaycanda çirkli pulların yuyulmasına qarşı mübarizənin və aktivlərin bərpası sahəsində fəaliyyətin gücləndirilməsi

## Məqsəd nədir?

- Azərbaycanın hökumət orqanlarının Avropa və beynəlxalq standartlara uyğun olaraq çirkli pulların yuyulmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə və qarşısının alınması, eyni zamanda cinayət yolu ilə əldə edilmiş vəsaitlərin geri qaytarılması sahəsində bacarıqlarının artırılmasına yönəlmiş institusional islahatların həyata keçirilməsi yolu ilə demokratiyaya və qanunun aliliyinə töhfə vermək.

## Layihədən kim faydalanır?

- Baş Prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsi;
- Maliyyə Monitorinqi Xidməti;
- Ədliyyə Nazirliyi;
- Korrupsiyaya qarşı Mübarizə üzrə Komissiya;
- Daxili İşlər Nazirliyi;
- İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidməti;
- Dövlət Təhlükəsizlik Xidməti;
- Dövlət Gömrük Komitəsi;
- Mərkəzi Bank;
- Auditorlar Palatası;
- Peşə birlikləri (Banklar; vəkillər);
- Vətəndaş cəmiyyəti.

## Layihə necə işləyir?

- Milli tərəfdaşlarla sıx əməkdaşlıq şəraitində;
- Layihənin məqsədlərinə çatmağa yönəlmiş önləyici, icraat və strateji inkişaf fəaliyyəti üzrə xüsusi işlənib hazırlanmış tədbirlər vasitəsilə.
- YİT I Mərhələsi (2015-2018-ci illər) çərçivəsində korrupsiya və çirkli pulların yuyulmasına qarşı mübarizə sahəsində əvvəlki əməkdaşlığın nəticələri əsasında.

## Nələrə nail olmağı gözləyirik?

- Çirkli pulların yuyulmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə və qarşısının alınması məqsədilə Azərbaycanda qurumların strateji və əməliyyat üzrə potensialının artırılması;
- Cinayət yolu ilə əldə edilmiş vəsaitlərin geri qaytarılması üçün hüquqi və institusional çərçivənin tətbiqi.

## Layihənin büdcəsi nə qədərdir?

- Layihənin ümumi büdcəsi 722 000 avro təşkil edir.
- Büdcənin 80%-i Avropa İttifaqı, 20%-i isə Avropa Şurası tərəfindən maliyyələşdirilr. Proqram Avropa Şurası tərəfindən həyata keçirilir.

## Layihənin müddəti nə qədərdir?

- Proqram 2019-cu ilin yanvar ayından 31 avqust 2022-ci ilə qədər davam edir.

**http://partnership-governance2-eu.coe.int**

## Əlavə məlumatı necə əldə etmək olar?

- Layihə Avropa Şurasının Cinayətkarlığa qarşı Mübarizə İdarəsi tərəfindən İqtisadi Cinayətlər və Əməkdaşlıq Şöbəsi (İnsan Hüquqları və Qanunun Aliliyi üzrə Baş Direktorluq) vasitəsilə həyata keçirilir.

## Əlaqə Məlumatı


Strasburqda layihə komandası:

- Cənab Mustafa Ferati, İqtisadi Cinayətlər və Əməkdaşlıq Şöbəsinin rəhbəri
  mustafa.ferati@coe.int
- Cənab Evgeni Evgeniyev, Bölmə rəhbəri
  evgeni.evgeniev@coe.int
- Xanım Danae İssa, Layihə Rəhbəri
  danae.issa @coe.int

Bakıda layihə komandası:

- Xanım Firuzə Cəfərova
  Layihə üzrə Məsul Şəxs
  firuza.jafarova@coe.int


*Bu layihə, Yaxşı İdarəçilik üçün Tərəfdaşlıq Proqramı (II mərhələ, həmçinin, YİT- II adlandırılır) çərçivəsində Azərbaycanla həyata keçirilən ikitərəfli layihədir.*

*2014-cü ilin aprel ayında Avropa İttifaqı və Avropa Şurası, Aİ-nin Şərq Tərəfdaşlığı ölkələri olan Ermənistan, Azərbaycan, Gürcüstan, Moldova Respublikası, Ukrayna və Belarus ilə məqsədyönlü əməkdaşlıq fəaliyyətlərinin Yaxşı İdarəçilik üçün Tərəfdaşlıq proqramı çərçivəsində həyata keçiriləcəyi barədə razılığa gəldilər. Proqramın I mərhələsi (YİT - I) 2015-ci ildə başlamış və 2018-ci ildə başa çatmışdır; proqramın ikinci mərhələsi isə (YİT - II) 2019-cu ildə başlamış və 2022-ci ilin avqust ayına qədər davam edəcəkdir.*

*Bu əməkdaşlıq fəaliyyətlərinin məqsədi, Belarus istisna olmaqla, Avropa Şurasının üzvü olan Şərq Tərəfdaşlığı ölkələrini insan hüquqları, demokratiya və qanunun aliliyi sahələrində Avropa standartlarına yaxınlaşdırmaq məqsədilə onların daxili islahatlar həyata keçirmək potensialını artırmaqdır.*